# Quzey Azərbaycanın işğalı

## Gülüstan və Türkmənçay müqavilələrinin bağlanması



Elşən Mirişli
Gəncə şəhəri, tarixçi

### Siyasi hadisələr

***Abbas Mirzə bilirdi ki, Gülüstan sazişi üzrə bağlanmış müqavilə müvəqqəti sazişdir. Çar Aleksandr tezliklə babası Pyotrun xəyalpərvər planlarını icra etmək üçün Azərbaycan sərhədlərinə yenidən basqın edəcəkdir.***

***Qəhrəman Qacar şahzadəsi bilirdi ki,Napolion Bonapartın Rusiya əleyhinə dəhşətli və qorxulu həmlələrinə görə, habelə ümumi düşmənə-Fransaya qarşı Rusiya ilə müttəfiq olan İngiltərə dövlətinin təyziq və israrına görə ruslar ilə saziş bağlamaq və müharibəni dayandırmaq məcburiyyətində qalmışlar;buna görə də gec- tez Avropa cəbhəsindən əmin olduqdan sonra Rusiya bütün diqqətini, gücünü Qafqaza, məğlub olduğu İrəvana doğru yönəldəcəkdir.On il sürən dəhşətli müharibə və sazişdən sonra törənən çətinliklərə, maneələrə baxmayaraq, Abbas Mirzə qoşunu nizama salıb nöqsanları aradan qaldırmağa və Azərbaycandan yeni qoşun toplamağa başlamışdı.O,əmr etmişdi ki, könüllü əsgərlərdən başqa Azərbaycanın hər yerindən məcburi əsgər toplama məsələsi həyata keçirilsin.***

### Səfər tədarükləri

Qacar Dövləti Azərbaycanın işğalının qarşısını almaq üçün qalalarını təmir və yeni qalalar inşa etdirdi və iki il ərzində fransız hərbi mühəndisi müsyö Laminin layihələri ilə Ərdəbil, Xoy,Təbriz, İrəvan, Alıncıq və Sərdarabad qalalarını təmir və inşa etdirdi.

Bir tərəfdən,Şahsevən, Əfşar, Qacar, İzzaəddinli, Qaragözlər və sair Türk tayfalarından könüllü topladığı kimi,digər tərəfdən də əcnəbi məmləkətlərdən mütəxəssislər cəlb edərək, "Nizami-cədid" adıyla nizami ordu yaratmağa başladı. İngiltərədən mister Krest və Ləzi adlı adlı topçu və süvari mütəxəssisləri gəldi.Rus ordusundan olan fərarilər Qacar ordusuna birləşmişdi.Bu fərarilərdən də "Bahadıran" adıyla bir ordu təşkil edildi.Bu surətlə təşkkül etmiş olan Qacar slahlı qüvvələrinin komandanı Abbas Mirzə idi.

### Abbas Mirzə

Abbas Mirzə (1789-1833) Qacar Şahı Fətəli xanın vəliəhdi, Azərbaycanın canişini idi.Qacar Dövlətinin idarə edilməsində,onun xarici siyasətində rəhbər rol oynayırdı.1804-1813 və1826-1828-ci illər Rusiya –Qacar və 1821-1823-cü illər Qacar –Osmanlı savaşının gedişində Qacar ordusuna komandanlıq etmişdir.

Qacar Himayəsi: Azərbaycan dərələr ilə qanlar axıtdığından və yüz minlərcə övladını kömdükdən sonra dönük taleyini yenə bilməyərək, Gülüstan müqaviləsi ilə Rusiyaya əsir və məhkum oldu isə də,bu əsarətə Azərbaycan,heç vaxt dözə bilməyəcəyini anlayaraq bir az sonra rus istibdadına qarşı üsyan elədi.Məmləkətləri Rusiya tərəfindən istila edildiyindən Qacar Dövlətinə qaçmış olan Şimali Azərbaycan xanlarına rus hüdudu civarında məmuriyyət verilməklə, bu arada vaxtilə Qacar Dövlətinə sığınan sabiq Bakı xanı Hüseynəli xan ilə Gürcüstan prinslərindən Aleksandrı rus sərhəddi civarına hakim təyin etməklə, Surxay xanı və sairələrini də mühüm mövqelərə təyin etdi və vətənlərinin Rusiyadan xilası üçün Qacar Dövləti onlara hər türlü köməklər elədi. Nəhayət,Qacar Dövləti Rusiyaya müharibə elan etməyə məcbur qaldı.

Müharibənin başlanğıcı Rusiya üçün uğursuz oldu. İbrahim xan Qacar və Şirvanlı Mustafa xan Şirvana, Mir Həsən xan başqa bir qoşunla Lənkərana, qardaşı Sarı Aslanı (Həsən xan) İrəvan sərdarı Hüseyn xan və İrakli oğlu Aleksandr Mirzə ilə birlikdə Tiflis Üzərinə yolladı.Uğurlu xan Ziyadoğlu Qacar Gəncəyə,Hüseyn xan (Səlim xanın oğlu) qardaşı Hacı xanla Şəkiyə-öz dədə yurdlarına girdilər.



### İkinci Rusiya – Qacar savaşı

***Gülüstan Müqaviləsi Qacar Dövlətini heç cür qane etmirdi,Qafqazın əldən çıxması böyük itki idi.1825-ci ildə Rusiyada baş vermiş Dekabristlər üsyanı Qacar hökumətini müharibəyə daha da şirnikləndirdi.General Yermolov Qacar Dövləti ilə müharibənin yaxınlaşdığını öyrənən kimi çara bildirdi.1826-cı il iyulun 16-da Qacar qoşunlarına qəfildən rus ordusu Göyçədə hücum etmişdi.İkinci Rusiya-Qacar savaşı bu hücumdan sonra başladı.Fətəli şah Qacarın nizami piyada ordusu 25 sərbaz ("başlarından keçənlər" anlamına gəlir) və 10 canbaz ("canlarından keçənlər") batalyonundan ibarət idi. Hamısı birlikdə 38,5 min nəfər edirdi.Ancaq yalnız Abbas Mirzənin Türk piyada qoşunu və top birliyinin 43 topa xidmət edən əsgərləri birbaşa şahın qərərgahında onu mühafizə edirdi.Müharibə zamanı Güney Azərbaycandan 6 minə yaxın və tərəkəmə tayfalarından 15 minə yaxın nizami olmayan atlı qoşun toplandı.***

Azərbaycan cihadı:1826-cı il iyul ayında Qacar ordusu Xudafərin körpüsünü sürətlə keçərək rus sərhəd alayını əzdi. Ruslardan 300-ə kimi əsgər öldürüldü,bir qismi əsir düşdü.Sonuncuların içində polkovnik Nazimov və mayor Kotavenski var idi.Qacar qoşunları sərhəd boyu döyüşlərdə rusları geri oturtdular. Abbas Mirzə ordusunun əsas qüvvələri ilə Şuşa qalasını iyulun 26-da mühasirəyə aldı. Mühasirə 48 gün sürdü.Şuşa qarnizonunun rəisi polkovnik Reut yaxşı hazırlıq görmüşdü.Qalanın ələ keçirilməsi uğrunda hücumlar istənilən nəticəni vermədi.Qacar ordusunun Qarabağa girməsi Azərbaycan Türklərini şücaətə sövq etdi.Borçalıda Lori şəhəri ruslar əleyhinə üsyan elədi.Uğurlu xan Ziyadoğlu Qacar gizlicə Gəncəyə daxil olduqdan sonra Gəncədə gecəykən ruslar üzərinə hücum edilib,əksəriyyəti qətl edildiyindən şəhər düşməndən xilas oldu.Bakılılar Hüseynəli xanı dəvət edərək,təkrar şəhərə gətirdilər.Surxay xan da Dağıstana girdi və Şimali Azərbaycanın bütün nöqtələrində xalq üsyan edərək,rus ordusunu qovaraq sabiq xanlarını dəvət etdilər.Bu hadisələrdən sonra ruslar dərhal Osmanlı sərhədlərindən və Gürcüstandan bütün ordularını Azərbaycana cəmləşdirdilər.

### Şəmkir müharibəsi

1826-cı ildə Şəmkirin yaxınlığında Qacar orduları ilə ruslar arasında böyük bir müharibə başlandı.Qacar komandanı Əmir xan geri çəkilərək,Gəncəni boşaltmağa məcbur oldusa da, Abbas Mirzə Əmir xanın çəkildiyi xəbərini alınca, Şuşanın mühasirəsini buraxıb, Gəncəyə hərəkət elədi.

### Zazalı müharibəsi: Gəncə 1826

Qacar ordusu Kuzey Azərbaycan qüvvələri ilə birlikdə Zazalıya gəldiyi zaman general Paskeviçin başçılığı altında yeni rus ordusu (çar ordusunun əksəriyyəti) ilə Gəncədə olan ruslara imdada yetişdi və Zazalı deyilən kənddə Qacar ordusu ilə dəhşətli bir müharibə oldu. Abbas Mirzə sayca lap çox olan düşmən qarşısında artıq kiçik ordusu ilə müqavimət edə bilməyəcəyini anlayaraq,Xaçşn-Aslandüz istiqaməti ilə geri çəkildi.Qacar ordusunun geri çəkilməsindən sonra Azərbaycana daxil olan ruslar bir çox şəhər və kəndləri məhv edib əhalisini qılıncdan keçirdilər.

**Türkmənçay müqaviləsi 10 fevral 1828-ci il Təbriz,Türkmənçay kəndində imzalanmış 10 fevral 1828-ci ildə qüvvəyə minmişdi.Qacar Dövləti İrəvan,Naxçıvan və Talış xanlığının özlərində qalmış hissəsinin də Rusiya imperiyası ərazisi olduğunu qəbul edirdi. Rusiyaya keçən torpaqlar hal-hazırki Ermənistan Respublikasının ərazisini, Naxçıvan Muxtar Respublikasının ərazisini, Azərbaycan Respublikasının cənub bölgəsinin bir hissəsini və indiki Türkiyə Cümhuriyyətinin ərazisi olan İğdir bölgəsini əhatə edirdi.**



### İrəvan –Naxçıvan müharibəsi 1827

***İrəvan və Naxçıvan xanlıqları Osmanlı İmperatorluğu sərhədlərində yerləşdikləri üçün hərbi cəhətdən coğrafi mövqeyinin əhəmiyyəti böyük idi. İrəvan və Naxçıvan xalıqları işğal edilsə Şimali Azərbaycanın Osmanlı İmperatorluğu ilə sərhədlərində rusların əlinə keçəcəkdi.***

***Həsən xan Qacar Dövlətinə pənah gətirmiş axırıncı Gürcüstan şahının oğlu İsgəndər Mirzə ilə birlikdə İrəvanla Tiflis arasındakı bütün məntəqələrə nəzarət etmiş,Tiflisə qədər irəliləmişdilər.***

***Abbas Mirzənin cəsarətli və vətənpərvər sərkərdəsi Hacı Məhəmməd xan Dəvəli rus generalını məğlub edərək Lənkəranı ruslardan xilas etmişdi.***

Gəncə şəhəri də alınıb xilas edildikdən sonra bu kimi cəsarətli hücumları gözləməyən çar I Nikolay(1825-1855) Avropa cəbhəsində qəhrəmanlıqlar göstərmiş, Polşa və Osmanlı müharibələrində böyük qələbələr əldə etmiş general Paskeviçi çağırtdırıb,onu Qafqaz cəbhəsindəki rus qüvvələrinə baş komandan təyin etmişdi.

Paskeviç bu vəzifəyə təyin olunduqdan sonra rus ordusunun əksəriyyətini təşkil edən böyük qüvvə ilə Qafqaza doğru hərəkət etmişdi. Gəncədə və İrəvan ətrafında Mədətovun məğlubiyyətindən sonra komandanlığa gətirilmişdi.

General Paskeviç İrəvan və Üç kisəni almaq məqsədi ilə qəfildən hücuma başlamışdır. O,qoşununu üç dəorduya bölmüş: birinci ordu general-mayor Voviçin başçılığı ilə Sərdarabad qalasını almağa,ikinci ordu general-mayor Menqrafın başçılığı ilə Üçkilsəni almağa, üçüncü ordu isə general –mayor Svarskinin başçılığı ilə İrəvan qalasını almağa göndərilmişdi.

***Üçkilsə qalasının müdafiəçiləri cəsarət və fədəkarlıqla müdafiə olunmuşdular.Qala rusların hədsiz sayda olması səbəbindən işğal olunmuşdu.Sərdarabad qalasını mühasirəyə alan rus qüvvələrinin yardımına getmişlər.***

***Sərdarabada qalası müdafiəçiləri Həsən sərdar altı saat sürən savaşda rusların birinci hücumunu dəf etmişdi.Qala müdafiəçiləri üç min nəfərdən ibarət idi. Rusların ikinci Sərdarabad hücumu iki saat savaşdan sonra hücumçuların qabağı alınmış,rus qüvvələri ağır tələfat verdikdən sonra sonra geri çəkilərək qaçmışdılar.***

Rusların birləşmiş ordusunun üçüncü hücumuna general-mayor Voviç və general-mayor Menqraf komandanlıq etmiş. Rus ordusu üçün məğlubiyyətlə bitmişdi. Sərdarabad qalasını müdafiə edən Həsən xan Sarı Aslan rusların saysız topları ilə dağılmış qalanı müdafiə etməyi faydasız görüb,dörd yüz əsgərlə mühasirədən çıxıb Şahbəxtliyə doğru getmişdi.

1827- ci il aprelin 20-də ruslar Xudafərin körpüsünü tutdu. Rus ordusu İrəvana doğru irəlilədi. İrəvanın iki aylıq mühasirəsi yenə uğursuz oldu. İyulun 26-da Naxçıvan qalası işğal olundu.

İrəvan qalasına növbəti mühasirəsi sentyabrın 26-da başlandı. Oktyabrın 1-də gün qaralana yaxın qanlı döyüşdən sonra İrəvan qalası tutuldu.

### Türkmənçay müqaviləsi.

Türkmənçay müqaviləsi 10 fevral 1828-ci il Təbriz,Türkmənçay kəndində imzalanmış 10 fevral 1828-ci ildə qüvvəyə minmişdi.Qacar Dövləti İrəvan,Naxçıvan və Talış xanlığının özlərində qalmış hissəsinin də Rusiya imperiyası ərazisi olduğunu qəbul edirdi. Rusiyaya keçən torpaqlar hal-hazırki Ermənistan Respublikasının ərazisini, Naxçıvan Muxtar Respublikasının ərazisini, Azərbaycan Respublikasının cənub bölgəsinin bir hissəsini və indiki Türkiyə Cümhuriyyətinin ərazisi olan İğdir bölgəsini əhatə edirdi.

***Müqaviləni İran tərəfdən vəliəhd şahzadə Abbas Mirzə və Fətəli şahın nümayəndəsi Allahyar xan Əsəf əl-Dövlə,Rusiya tərəfdən general İvan Paskeviç imzalamışdır.Bu müqavilə ilə Qacar Dövləti Xəxər dənizində gəmilərinin üzməsi haqqından məhrum və iyirmi milyon manat hərbi təzminat verməyə məcbur edildi.***

***Bu müqavilə ilə Azərbaycan Qacar Azərbaycanı və Kuzey Azərbaycan adıyla iki yerə parçalandı.1935-ci ildən isə Qacar Azərbaycanı rəsmən İran Azərbaycanına çevrildi.***